

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 166 (24.053)

2 sentyabr 2022-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Romaya işgüzar səfər çərçivəsində Azərbaycan Respublikasının İtaliya Respublikasındakı səfirliyinin yeni binasının açılışında iştirak edib. Əvvəlcə dövlətimizin başçısı səfirliyin həyətində ağac əkib. Sonra Prezident İlham Əliyev səfirliyin yeni binasının rəmzi açılışını bildirən lenti kəsib, yeni binada yaradılan şəraitlə, mərkəzin açılışı münasibətilə təşkil edilən "Mənim Azərbaycanım" adlı rəsm sərgisi ilə tanış olub.

Həmin gün Romada İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsinin müəyyən edilməsi, fakültə və proqramların yaradılması ilə bağlı ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi – Luiss Guido Carli Universiteti, Romanın Sapienza Universiteti, Turin Politexnik Universiteti, Alma Mater Bolonya Universiteti və Milan Politexnik Universiteti arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sənədlərin mübadiləsindən sonra çıxış edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 1-də İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə görüşü olub. Azərbaycan Prezidenti İlham Əliyevi salamlayan İtaliya Prezidenti Sercio Mattarella deyib: Bu il ölkələrimiz arasında diplomatik münasibətlərin 30 illiyini qeyd edirik. Bu səhər Siz Azərbaycan səfirliyinin yeni binasını açdınız. Bu, İtaliya ilə Azərbaycan arasında dostluq əlaqələrinin mühüm nümunəsidir. Azərbaycan Prezidenti İlham Əliyev dəvətə və qonaqpərvərliyə görə minnətdarlıq edib.

Həmin gün İtaliya Respublikası Nazirlər Şurasının Sədri Mario Draqi ilə təkbətək görüş olub.

## Naxçıvanda ənənəvi məktəbli yarmarkalarına start verilib

*Naxçıvan Muxtar Respublikası Təhsil və İqtisadiyyat nazirliklərinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə sentyabrın 1-də – yeni tədris ili ərəfəsində Naxçıvan şəhərindəki Mərkəzi Bazarda ənənəvi məktəbli yarmarkasının açılışı olub.*





Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov açaraq qeyd edib ki, muxtar respublikamızda bütün sahələr kimi, təhsil sahəsi də Ali Məclis Sədrinin hərtərəfli qayğısı ilə əhatə olunub. Bunun nəticəsidir ki, həyata keçirilən ardıcıl tədbirlər sayəsində hər ötən tədris ili yeni uğurlarla yadda qalır. Yeni tədris ili ərəfəsində müəllim və şagirdlərin məktəbli ləvazimatlarına olan ehtiyaclarını daha asan, rahat və sərfəli qiymətə təmin etmək məqsədilə Mərkəzi Bazarda təşkil edilən məktəbli yarmarkası da təhsilin inkişafına dövlət qayğısının növbəti təzahürüdür.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev çıxış edərək bildirib ki, Naxçıvan şəhərində və muxtar respublikanın bütün rayon mərkəzlərində təşkil olunan məktəbli yarmarkaları müəllim və şagirdlərin lazımi məktəb ləvazimatları ilə təmin olunmasında mühüm rol oynayır. Qeyd olunub ki, hazırda muxtar respublikamızda məktəbli geyimləri, köynək, ayaqqabı istehsal edən yüngül sənaye müəssisələri fəaliyyət göstərir. Ümumtəhsil məktəblərinin şagird və müəllimlərinin geyim formalarına olan tələbat diyarımızda mövcud olan tikiş müəssisələrinin, o cümlədən "Zümrüd Tekstil" Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi yüksəkkeyfiyyətli məhsullar hesabına ödənilir. 22 sahibkarlıq subyektinin iştirak etdiyi yarmarkada 50 adda dərs ləvazimatları, məktəbli və idman formaları, məktəbli çantası və ayaqqabılar və başqa ləvazimatlar alıcılara münasib qiymətlərlə təklif olunur.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək təhsilə göstərilən dövlət qayğısından danışıb. Nazir qeyd edib ki, Ali Məclis Sədrinin diqqət və qayğısı ilə təhsilin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, yeni məktəb binaları inşa edilir, təhsil müəssisələrinin maddi-tədris bazası möhkəmləndirilir, infrastrukturu yenilənir. Muxtar respublikada təhsil səviyyəsinin müasir standartlara uyğunlaşdırılması, normal tədris şəraitinin yaradılması, bir sözlə, təhsilin inkişafı üçün atılan bütün addımlar şagirdlərin yüksək səviyyəli təhsil almasına geniş imkanlar açır. Bildirilib ki, ümumtəhsil məktəblərində sürətli internetə çıxışı olan kompüter və elektron lövhələrin quraşdırılması, zəngin fonda malik kitabxanalar, laboratoriyalar və fənn kabinələrinin yaradılması muxtar respublikamızda təhsil alan gənclərimizin intellektual potensialının yüksəlməsinə, onların bilik və bacarıqlarının təkmilləşdirilməsinə öz töhfəsini verir. Ali Məclis Sədrinin təşəbbüs və rəhbərliyi ilə şagirdlərin təhsil sahəsində daha aktiv, məhsuldar, tənqidi düşünməyi bacaran, bildiklərini ortaq bir istiqamətə yönəldən, təhsilin yeni istiqaməti sayılan STEAM təhsil metodunun muxtar respublikamızın bütün ümumtəhsil məktəblərində, təhsil ocaqlarında yaradılması zəruri hala çevrilib. Bununla belə hazırda 17 təhsil müəssisəsində binaların tikintisi və ya yenidən qurulması davam etdirilir. 2022-2023-cü tədris ilindən isə Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Lisey, Distant Təhsil Mərkəzi, 8 nömrəli uşaq bağçası-körpələr evi və STEAM Təlim-Tədris Mərkəzi Təhsil Nazirliyinin şəbəkəsinə qoşulacaq.

Rəhman Məmmədov vurğulayıb ki, növbəti yarmarkada dərs ləvazimatları, muxtar respublikada istehsal olunmuş məktəbli və idman formaları, məktəbli çantası və ayaqqabıları və başqa ləvazimatlar alıcılara münasib qiymətlərlə təklif edilir. Sevindirici haldır ki, muxtar respublikada məktəbli geyimlərinə tələbat tam olaraq yerli istehsal hesabına ödənilir.

Sonra yarmarkaya baxış olub. Satış yerlərinin hər birində məhsulların çeşid zənginliyi, keyfiyyəti, satış qiymətlərinin əlverişli olması, xidmətin təşkili alıcılar tərəfindən razılıqla qarşılanıb. Valideynlər belə yarmarkaların təşkil olunmasına görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, məktəbli yarmarkaları sentyabrın 14-dək davam edəcək.

✍ **Məcid RƏŞADƏTOĞLU**

*Muxtar respublikada dövlətimiz tərəfindən digər şagirdlər kimi, sağlamlıq imkanları məhdud uşaqların da təhsili diqqət mərkəzində saxlanılır.*

## Distant Təhsil Mərkəzi sağlamlıq imkanları məhdud uşaqların təhsil imkanlarını artıracaq



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası bu qəbildən olan uşaqların təhsil almasına, onların reabilitasiyasına, cəmiyyətə daha fəal inteqrasiyasına yeni imkanlar yaradıb. Bu tədbirlərin davamı olaraq sağlamlıq imkanları məhdud uşaqların təhsil almaq imkanını artırmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində Distant Təhsil Mərkəzi yaradılmışdır. Mərkəz Naxçıvan şəhər 2 nömrəli tam orta məktəbin nəzdində 2022-2023-cü tədris ilindən fəaliyyətə başlayacaqdır. Binada aparılan təmir işləri artıq yekunlaşmaq üzrədir. Burada tədris üçün ayrılmış otaqlarda lazımi şərait yaradılacaq. Distant təhsilə cəlb olunacaq şagird kontingenti müəyyənləşdirilir, tədris proqramı hazırlanır, onlar üçün dərslik və kompüter tələbatının ödənilməsi üçün lazım olan bütün təşkilati və metodik işlər aparılır.

Sağlamlıq vəziyyətinə görə təhsil müəssisəsində təhsil almaq imkanı olmayan uşaqlar evlərindən tədrisə cəlb olunacaq. Bunun üçün mərkəzin pedaqoji kollektivi yaradılan müasir təhsil texnologiyalarından istifadə etməklə ümumtəhsil proqramını tədris edəcəklər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Təbii qaz təsərrüfatı yenilənir

*Bu gün istehlakçıların fasiləsiz və təhlükəsiz təbii qazla təminatını həyata keçirmək üçün Culfa rayonunun qaz təsərrüfatında təmir-bərpa işləri davam etdirilir, istismar üçün yararsız qaz xətlərinin və avadanlıqların müəyyən edilərək yenilənməsi işləri həyata keçirilir.*



Təbii qazın nəqli zamanı meydana çıxan texniki itki normalarının minimal həddə saxlanılması üçün tədbirlər görülür. Həmçinin qazpaylayıcı şəbəkənin təhlükəsizliyinin təmin edilməsi məqsədilə təmir-profilaktika işlərini vaxtında yerinə yetirməklə texniki cəhətdən saz vəziyyətdə saxlanılması da təmin olunur. Eyni zamanda 2022-ci ilin ötən dövründə yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərinin görülməsi zamanı onların yerlərinin dəyişdirilməsi, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərin yerüstü keçidlərlə əvəz edilməsi işləri davam etdirilib.

Bəhs olunan dövrdə 15 mənzil və 1 müxtəlif təyinatlı obyekt qazlaşdırılmış, istismar müddəti başa çatmış 25 qaz sayğacı yeniləri ilə əvəz olunmuş, 20 mühafizə qutusu quraşdırılmışdır.

Həmçinin Culfa Rayon Qaz İstismar İdarəsinin Qəza-dispetçer sahəsinə daxil olan 360 müraciət qeydə alınmış, baş verən qəzalar vaxtında aradan qaldırılmışdır.

**Alim AĞAYEV**

## Vətən müharibəsi iştirakçılarına medallar təqdim olunub





*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 24 iyun və 2022-ci il 21 aprel tarixli sərəncamları ilə ölkəmizin ərazi bütövlüyü uğrunda aparılmış döyüş əməliyyatlarında igidlik və şücaət göstərmiş hərbi qulluqçuların təltif edildikləri medalların təqdimat mərasimi keçirilib.*

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsində keçirilən tədbirdə əvvəlcə torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəis müavini, polkovnik-leytenant Sultan Zamanov çıxış edərək bildirib ki, bu gün muxtar respublikamızda ordu quruculuğu sahəsində həyata keçirilən əhəmiyyətli tədbirlərdən biri də Vətənə sədaqətli, peşəkar hərbi kadr hazırlığı ilə bağlıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı nəticəsində Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin maddi-texniki bazası möhkəmləndirilib, kursantlar üçün müasir tədris, rahat məişət və yaşayış şəraiti yaradılıb. Bu gün hərbi liseyin məzunları Azərbaycan Ordusunda xidməti vəzifələrini şərəflə yerinə yetirirlər. Vətənə sədaqət andı içib, ordu sıralarında xidmət edən igid oğullarımız Vətən torpağına olan sevgilərini və onun yolunda nələrə qadir olduqlarını 44 günlük Vətən müharibəsində sübuta yetirdilər.

Qeyd olunub ki, Vətən müharibəsində iştirak edən, şəhid olan qəhrəmanların şücaəti gələcək nəsillərə örnəkdir və onların sırasında Naxçıvanın mərd oğulları da çoxdur. Onlardan Vətən müharibəsində qəhrəmanlıq göstərmiş Naxçıvan şəhər sakinləri qazi kapitan Hüseynalı Hüseynalıyev, qazi baş leytenant Hüseyn Həsənov, qazi kiçik çavuş Yusif Haqverdiyev, Vətən müharibəsi iştirakçıları baş əsgər Əbülfəz Həsənov, əsgər Samir Əliyev, əsgər Ayxan Fərzalızadə, əsgər Səfər Həşimov, əsgər Emin Hüseynov "Vətən müharibəsi iştirakçısı" medalı, Vətən müharibəsi iştirakçısı kiçik gizir Emil Zeynalov isə "Laçının azad olunmasına görə" medalı ilə təltif olunublar.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri İsmayıl Gülməmmədov çıxışında qeyd edib ki, Vətən müharibəsində Silahlı Qüvvələrimizin hərbi qulluqçuları gözlərini qırpmadan ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərib, canlarını qurban verib, Azərbaycan Ordusunun qüdrətini bütün dünyaya nümayiş etdiriblər. Şəhidlərimizin və qazilərimizin hər birinin şücaəti, qəhrəmanlığı bu gün də, gələcəkdə də yetişən yeni nəsillərə vətəndaşlıq, vətənpərvərlik nümunəsidir.

Vurğulanıb ki, ölkəmizdə şəhid adı daim uca tutulur, onların Vətən qarşısındakı xidmətləri yüksək qiymətləndirilir, dövlət təltiflərinə layiq görülürlər. Naxçıvanda da şəhid ailələri, qazi və müharibə iştirakçılarına hərtərəfli qayğı göstərilir, sosial müdafiələri gücləndirilir, onlar mənzil və avtomobillərlə təmin olunurlar.

Sonra medalların təqdimatı olub, qazi və Vətən müharibəsi iştirakçıları onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

**Xəbərlər şöbəsi**

---

***"Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır"***, *–deyərək uşaqları ailənin, xalqın, dövlətin ən qiymətli sərvəti, ən əziz neməti kimi dəyərləndirən, onları böyük məhəbbətlə sevən ümummilli liderimiz Heydər Əliyevlə hər görüş sonsuz coşqu hissləri yaşadır, stimul bəxş edirdi azyaşlılara, yaddaşlarında dərin təəssürat, əbədi iz buraxırdı balacaların. Ulu öndərin ölkəmizin, millətimizin, dövlətimizin sabahı naminə misilsiz missiyasının uğurla davam etdirilməsi bu gün sağlamlıq imkanları məhdud uşaqlara, onların cəmiyyətin fəal üzvünə çevrilməsi üçün göstərilən yüksək diqqətdə, qayğıda da bariz şəkildə göstərir özünü. Söhbət açacağım mövzu 2007-ci ildə yaradılan Naxçıvan şəhərindəki Uşaq Bərpa Mərkəzinin bu yöndəki fəaliyyəti barədədir...*

## Ailənin, xalqın, dövlətin ən qiymətli sərvətinin sağlamlığı naminə...



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamı ilə qəbul olunan "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin icra vəziyyəti ilə bağlı əyani şəkildə məlumatlar əldə etmək məqsədilə üz tutduğum Naxçıvan şəhərindəki Uşaq Bərpa Mərkəzinin həyətinə yetişəndə bir mənzərə qarşısında qeyri-iradi ayaq saxlayıram. Mərkəzin əyləncəli oyun sahəsində uşaqların şən-şaqraq səslərini eşidir, öz-özümə, həqiqətən, doğru söyləyiblər: "Uşaqlar gülərsə dünya gülər", – deyib, düşüncələrə dalıram. Yaddaşımda televiziya ekranlarında izlədiyim, hər dəfə xatırladıqca təsirindən çıxa bilmədiyim videokadrlar canlanır: dünyanın bir sıra yerlərində terrorizmin qurbanına, cəmiyyətin qınaq hədəfinə çevrilən, valideynləri tərəfindən işgəncələrə məruz qalan azyaşlılar. I Qarabağ müharibəsi dövründə, 31 Mart, 20 Yanvar, Xocalı faciəsi zamanı, böyük qələbəmizlə yekunlaşan 44 günlük Vətən müharibəsində erməni vəhşiliyinə düçar olan, işgəncələrdən həyatını itirən, atasız, anasız qalan uşaqlar. Xocalı faciəsi zamanı özündən balaca qardaşını qucağına alaraq namərddən qorumaq üçün bağrına basan uşağın tükürpədən siması, II Qarabağ müharibəsi dövründə Gəncəyə atılan raketdən sonra üzü qanlar içərisində qalan azyaşlının məsum baxışları... "Gedək mərkəzimizin iş prinsipi, verilən yeni reabilitasiya avadanlıqları ilə əyani şəkildə tanış edim sizi", – deyərək məni düşüncələrdən ayırır bayaqdan kənardan uşaqların bədən gimnastikası hərəkətlərini diqqətlə izləyən Uşaq Bərpa Mərkəzinin baş həkimi ***Şəhla Əhmədova.*** Beynimə dolan qara fikirlər bir andaca öz yerini muxtar respublikamızda balacaların xoşbəxt gələcəyi naminə həyata keçirilən işlərlə, xüsusilə də sağlamlıq imkanları məhdud uşaqların təhsili, reabilitasiyası, onların bilik və bacarıqlarının inkişafı istiqamətində görülən tədbirlərlə, reallaşan layihələrlə bağlı düşüncələrə verir. Özözümə "nə xoş bizə ki, pisliklərdən, naqisliklərdən uzaq, qədir-qiymət bilinən bir ölkənin vətəndaşıyıq, uşaqlara qayğı dolu diyarda dünyaya göz açmışıq", – deyirəm...

Mərkəzlə tanışlıq zamanı öyrənirəm ki, burada müxtəlif tezlikli cərəyanlarla müalicə, infraqırmızı lampa, ultrabənövşəyi, mikrodalğa ilə müalicə, manual masaj, parafin aplikasiyası, hidroterapiya (burulğanlı, mirvari vannaları) otaqları, müalicəvi bədən tərbiyəsi zalı fəaliyyət göstərir. Bunlardan əlavə, uşaqların asudə vaxtlarını səmərəli keçirmələrinə, eləcə də qabiliyyət və bacarıqlarının inkişafına xidmət edən əmək terapiyası otağı da yaradılıb, autizm sindromundan əziyyət çəkən, eyni zamanda diqqət dağınıqlığı olan hiperaktiv uşaqların müalicəsində əvəzsiz rola malik multisensor terapiya müalicə otağı istifadəyə verilib. Cari il yanvarın 14-də mərkəzə xəstəliklərin daha dəqiq diaqnostikasına, effektiv müayinə və müalicəsinə imkan yaradan, tibbin ən müasir yeniliklərini özündə cəmləşdirən reabilitasiya avadanlıqları verilib. Həmin vasitələrin hər birinin istifadə imkanlarına qısaca nəzər yetirdikdə dövlətimizin sağlamlıq imkanları məhdud uşaqların səhhətinə necə həssaslıqla yanaşdığını, diyarımızda insan sağlamlığına verilən dəyər bir daha özünü bariz şəkildə göstərir. Elektroensefaloqrafiya cihazı epilepsiya xəstəliyinin diaqnostikasında tətbiq olunur. Universal trenajor aparatı isə boyun bölgəsi, gövdə və sərbəst hissə əzələlərinin xəstəliklərinə bağlı yaranan zəifliyin və kontrakturların aradan qaldırılması baxımından müalicəvi əhəmiyyətə malikdir. Velotrenajor avadanlığı 1-ci dərəcəli osteoartrozlar, aşıq-daban oynağı xəstəlikləri, aşağı ətrafların parezi, həmçinin profilaktik məqsədlə əzələləri gücləndirmək üçün tətbiq edilir. Bu məqamda, xüsusilə qeyd etmək yerinə düşər ki, innovativ işləmə mexanizminə malik bu avadanlıqlar həkimlərin işini xeyli asanlaşdırmaqla yanaşı, valideynlərdə övladlarının sağlamlığına ümid, inam hisslərini daha da gücləndirib.

Mərkəzə göndərişlər Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərindən, şəhər və rayon uşaq xəstəxanalarından qəbul olunur. Göndəriş əsasında mərkəzə gələn hər bir uşaq əvvəlcə ətraflı şəkildə müayinə olunur, daha sonra həkim-fizioterapevt tərəfindən onun üçün tərtib edilmiş fərdi tibbi reabilitasiya kitabçasında təyin olunmuş müalicə prosedurunun adı, tətbiq ediləcək nahiyə, prosedurun müddətinə dair qeydiyyatlar aparılır və gündəlik olaraq proseslərin düzgün yerinə yetirilməsinə həkim tərəfindən ciddi nəzarət edilir. Məlumat üçün bildirək ki, 2021-ci ildə 42-si stasionar, 237-si ambulator olmaqla, 279 sağlamlıq imkanları məhdud uşağın göndərişi qəbul edilərək lazımi müayinə və müalicələri yerinə yetirilib. Hazırda mərkəzdə 10-u ambulator, 7-si stasionar olmaqla, 17 sağlamlıq imkanları məhdud uşağın müalicəsi aparılır.





Ümummilli lider Heydər Əliyevin ***"Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır"*** dəyərli kəlamını xatırladan Şəhla həkim deyir ki, sağlamlıq imkanları məhdudluğun yaranma səbəbi elmə tam şəkildə bəlli olmasa da, əsasən, genetik, anadangəlmə bir problem kimi dəyərləndirilir. Lakin buna baxmayaraq, valideynlərin məsuliyyətsizliyindən də erkən yaş dövründə uşaqda gələcəkdə böyük fəsadlara, sağlamlıq imkanları məhdudluğuna yol aça biləcək xəstəliklər yarana bilər. Onun üçün də, xüsusilə uşaqlara 0-2 yaş dövründə həssaslıq göstərilməli, balacalar mənfi təsir göstərən, diqqət dağınıqlığı, hərəkət məhdudiyyətliliyi, aqressivlik yaradan zərərli vərdişlərdən uzaq tutulmalıdır. Həyatımızın ayrılmaz parçasına çevrilən müasir texnologiyalar bir tərəfdən müsbət hal kimi dünyada gedən proseslərlə ayaqlaşmağımız üçün yararlıdırsa, digər yandan, xüsusilə də uşaqların orqanizminə, psixologiyasına zərərli təsir göstərir. Bildiyimiz kimi, bütün xəstəliklər erkən yaş dövründə müalicə edilirsə, effektivlik daha tez və böyük mənada özünü göstərir. Onun üçün valideynlərdən xahişimiz və onlara məsləhətimiz budur ki, övladlarının sağlamlıq imkanları məhdudluğu ilə bağlı kiçik də olsa, narahatçılıq hiss etsələr, çəkinmədən dərhal uşaq xəstəxanalarına müraciət etsinlər.

Mərkəzdə olduğum müddətdə övladlarının müalicə proseduru barədə valideynlərlə söhbət etməyi də unutmuram. Onlardan ***Əlvanə Quliyeva*** və ***Səlbinaz Allahverdiyeva*** dövlətimizin yaratdığı imkanlardan, tibbi personalın fəaliyyətindən razılıq edirlər: – Yaşadığımız bu fani həyatın hər anı bir sınaqdır. Bu sınaqlardan uğurla çıxmağı, düşərkən qalxmağı bacarmağa hər kəs müvəffəq ola bilmir. Tale elə gətirib ki, biz də övladlarımızın sağlamlığı sarıdan çətinliklərlə üzləşmişik. Övladımızın sağlamlıq imkanları məhdudluğu bizi üzsə də, dövlətimizin dəstəyi, diqqəti və qayğısı ürəyimizə inam hissini qazandırmaqla bizi ayaqda dik durmağa sövq etdi. Əvvəllər yaxın qohum-əqrəbadan barəsində müsbət fikirlər eşitdiyimiz üçün yubanmadan bu il avqust ayının 15-də göndəriş əsasında Uşaq Bərpa Mərkəzinə üz tutduq, buraya yeni, müasir reabilitasiya avadanlıqlarının verildiyini öyrənəndə müalicənin effektivliyinə inamımız daha da artdı. Artıq övladlarımız tam şəkildə müayinə olunaraq müvafiq müalicə kursuna cəlb ediliblər. Sağlamlıq imkanları məhdud uşaqların valideynləri adından yaradılan şəraitə görə dövlətimizə, qayğıkeş, həssas münasibət üçün isə mərkəzin tibbi heyətinə minnətdarlıq edirik.

*Mətbuat tariximizdə özünəməxsus yeri və rolu olan "Füyuzat" jurnalı yazırdı ki, uşaq xəyalların, arzuların ümid tumurcuğu, ailə qalasının misilsiz sevinc qaynağı, cənnətin qoxusunu dünyada yayan yeganə gül, millətin övladı və ilahi əmanətdir. Bu gün Naxçıvan şəhərindəki Uşaq Bərpa Mərkəzinin tibbi personalı da xalqın, dövlətin ən qiymətli sərvətinin sağlamlığı naminə, ailə qalasının misilsiz sevinc qaynağının bərpası üçün əllərindən gələni əsirgəmir. Dövlətimizin bu xeyirxah missiyasının yerinə yetirilməsi işində onlara uğurlar diləyir, "Xəyalların, arzuların ümid tumurcuqlarından, cənnətin qoxusunu dünyada yayan güllərdən hər zaman bahar təravətli, könül oxşayan xoş rayihə gəlsin", – deyirəm..*

**✍ Nail ƏSGƏROV**

## Sosial qayğıya ehtiyacı olan şəxslərin muxtar respublikaya növbəti səfəri təşkil edilib

Bu günlərdə ölkəmizin digər regionlarından olan bir qrup sağlamlıq imkanları məhdud şəxsin və şəhid ailəsi üzvlərinin muxtar respublikaya səfəri təşkil olunub. Onlar burada yaradılan şəraitdən bəhrələnməklə Naxçıvan Diaqnostika Müalicə Mərkəzində, Darıdağ Arsenli Su Müalicəxanasında və Duzdağ Fizioterapiya Mərkəzində müalicə alıb, istirahət ediblər. Əlavə olaraq səfər müddətində qonaqların muxtar respublikanın turizm əhəmiyyətli məkanlarına, o cümlədən Naxçıvan şəhərində yerləşən və Şərq memarlığı incilərindən biri olan Möminə xatın türbəsinə, Əcəmi seyrəngahında təşkil olunmuş açıq səma altında muzeyə ekskursiyası baş tutub. Ekskursiyanın davamında "Əshabi-Kəhf" Dini-Mədəni Abidə Kompleksi ziyarət olunub. Ziyarətin ardından "Sahil Parkı"nda qonaqlar üçün çay süfrəsi təşkil olunub.

Qeyd edək ki, ölkəmizin digər bölgələrindən muxtar respublikaya bu kimi səfərlərin qarşıdakı dövr ərzində də davam etdirilməsi nəzərdə tutulub.

**Xəbərlər şöbəsi**

Axtarışlar, tapıntılar

# Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə İrəvan Müəllimlər Seminariyasının məzunları müstəsna rol oynayıb

*XIX əsrin sonu-XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə İrəvan Müəllimlər Seminariyası böyük rol oynamışdır. İrəvan şəhərində 1881-ci il noyabr ayının 3-də əsası qoyulmuş bu tədris müəssisəsinin 1885-ci ildə ilk buraxılışı olmuşdur. Həmin ildə seminariyanı bitirmiş məzunların 25 nəfəri azərbaycanlı, 2 nəfəri isə dağıstanlı idi. Bu məzunlar Azərbaycanın digər bölgələri kimi, Naxçıvanda da fəaliyyət göstərən bir çox məktəblərdə dərs demişlər. Mənbələrin məlumatlarından aydın olur ki, seminariyada Qasım Qənbərov Azərbaycan dilini, Məmmədbağır Qazızadə ədəbiyyatı, Mixail Klopov isə rus dili fənnini tədris etmişlər.*



Azərbaycan Respublikası Dövlət Tarix Arxivində saxlanılan sənədlər belə deməyə əsas verir ki, İrəvan Müəllimlər Seminariyasının ən çox azərbaycanlı məzunu 1890-cı ildə olmuşdur. Belə ki, həmin ildə bu seminariyanı 69 azərbaycanlı gənc bitirmişdir. Bu məzunlar İrəvan və Yelizavetpol quberniyalarında, Bakıda, Dağıstanda, Kutaisidə və Stavropolda pedaqoji fəaliyyət göstərmişlər.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində saxlanılan sənəddən öyrənirik ki, 1902-ci ildə İrəvan Müəllimlər Seminariyasının tərkibində xəzinə hesabına 6 ibtidai məktəb də fəaliyyət göstərmişdir. Həmin məktəblərin 2-si şəhər, 4-ü isə kənd məktəbi olmuşdur.

Tədqiqatçı Cəlal Allahverdiyev yazır: “1882-ci ildə İrəvanda 64 nəfər şagirdi olan daha bir Müəllimlər Seminariyası da fəaliyyət göstərmişdir”.

Qeyd edək ki, İrəvan şəhərində 1920-ci ildən sonra elmin və mədəniyyətin inkişafı üçün Pedaqoji Texnikum da yaradılmışdır. Məktəbin tanınmış müəllimlərindən Əsəd Məmmədov, Əjdər Kazımov, Qadir Məmmədov, Məmmədəli Məhərrəmov, Əli Həsənov, Tağı Məhərrəmov, İsmayıl İsmayılov, Qulam Namazov və başqaları məhz İrəvan Pedaqoji Texnikumunun məzunları olmuşdur.

Bəhs olunan dövrdə Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə İrəvan Müəllimlər Seminariyasının məzunlarından Məmmədqulubəy Kəngərlinin, Rəhim Xəlilovun, Axund Məmmədbağır Kazımzadənin, Məmməd Axundovun, Hacı Məmmədəli oğlunun, Məmmədbəy Qazıyevin, Tağı bəy Səfiyevin, Sadıq Xəlilovun, Mirzə Cəlil Şürbinin, Qasım bəy Camalbəyovun, Eynəli bəy Sultanovun və başqalarının adlarını qürur hissi ilə çəkə bilərik.

***Məmmədqulubəy Kəngərli***nin maarifçiliyin inkişafında misilsiz xidmətləri olmuşdur. O, 1864-cü ildə Naxçıvan şəhərində anadan olmuş, 1905-ci il avqust ayının 29-da Batumi şəhərində erməni komitəsi tərəfindən 41 yaşında faciəli şəkildə qətlə yetirilmişdir. O, ilk təhsilini atası mayor Şəfiağa Kəngərlidən almışdı. Daha sonra təhsilini atasının onun üçün tutduğu xüsusi müəllim yanında evdə, fərdi şəkildə davam etdirmişdir. Akademik İsa Həbibbəyli Məmmədqulubəy Kəngərlinin maarifçilik fəaliyyəti haqqında yazır: “Məmmədqulubəy Kəngərli birbaşa mənsub olduğu xalqa xidmət göstərmək niyyəti ilə hərbi işi buraxıb maarifçilik cəbhəsinə keçmək qərarına gəlmişdi”.

Məmmədqulubəy Kəngərli 1893-cü ildə istefaya çıxdıqdan sonra vəkil-hüquqşünas və məktəbdarlıq istiqamətində maarifçilik fəaliyyətini davam etdirmişdir.

Onun nə üçün məhz vəkil peşəsini seçdiyi “Həyat” qəzetində çap olunmuş məqalədə belə ifadə edilirdi: “Candan əziz sevdiyi millətinin ən ziyadə nəyə möhtac olduğunu təhqiq etdi. Bildi ki, İrəvan quberniyasının müsəlmanları əməlsizlikdən, dövlətin qanununu, məmurların ixtiyarını bilməmələrindən hər an bir müsibətdən digər bir bəlaya düçar olurlar. Bildi ki, ən əvvəl müqtədir bir vəkil olub millətə xidmətə buradan başlamaq lazımdır”.

Məmmədqulubəy Kəngərlinin məktəbdarlıq fəaliyyətini onun Qafqazda ilk dəfə olaraq açdığı “Leyli” qız məktəbi təsdiq edir. “Həyat” qəzetində Məmmədqulubəy Kəngərlinin müəllimlik fəaliyyəti haqqında deyilirdi: “Şəhi-ali-məqam belə ciddi, əhəmiyyətli bir xidmət ilə məşğul ola-ola, övladi-millətin tərbiyə və təhsilini əsla yaddan çıxarmazdı. Millətin səlamət və tərəqqisi üçün ən birinci qapı, ən birinci vasitə zəmanənin təqazasına görə açılacaq məktəb olduğunu çox yaxşı bilirdi. Axırda vəkilliyin ağırlığına baxmayaraq, Qafqazda birinci müsəlman “milli” məktəbi açdı. Ömürlərini müəllimlikdə çürüdüb, Qafqazda bu qədər böyük şəhərlərdə bir müsəlman məktəbi aça bilməyən müəllimlərə ən ibrət bəxş bir nümunə, bir müəllim oldu. Məktəbi az vaxtda dərəceyi-tərəqqinin ən üst mərtəbəsinə çıxardı”.

İrəvan Müəllimlər Seminariyasının məzunlarından ***Məmmədbəy Qazıyev*** 1897-ci il yanvar ayının 18-də Naxçıvan şəhərində anadan olmuş, 1909-cu il mart ayının 30-da Uluxanlı stansiyasında sərnişin qatarının altına düşərək faciəli şəkildə vəfat etmişdir. O, seminariyadakı təhsilini başa vurduqdan sonra elə həmin il avqust ayının 1-də təyinatla Uluxanlı normal məktəbinə ikinci müəllim vəzifəsinə göndərilmiş, bu məktəbdə cəmi bir il işləyə bilmişdir. Buna səbəb onun 1887-ci il avqust ayının 7-də qəflətən ağır xəstələnməsi idi. Bir müddət müalicə aldıqdan sonra yenidən pedaqoji fəaliyyətə başlamış, 1888-ci il iyun ayının 1-də Xalq Məktəbləri Direktorluğunun əmri ilə Şərur rayonundakı ikisinifli məktəbə müdir əvəzi vəzifəsinə təyin olunmuşdur. Sonra Uluxanlı məktəbinə getmiş, 1896-1909-cu illərdə bu məktəbdə nəzarətçi müəllim vəzifəsində çalışmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində saxlanılan bir sənəddə Məmmədbəy Qazıyevin III dərəcəli “Müqəddəs Anna” ordeni ilə təltif olunduğu da göstərilmişdir.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Naxçıvanda maarif nurunun yayılmasında İrəvan Müəllimlər Seminariyasında 1889-1893-cü illərdə təhsil almış naxçıvanlı maarifpərvər ziyalı ***Tağı bəy Səfiyev***in də çox böyük rolu olmuşdur. O bu seminariyadakı təhsilini başa vurduqdan sonra təyinatı üzrə Şərur rayonunda müəllimlik fəaliyyətinə başlamışdır. “Molla Nəsrəddin” jurnalında dərc edilmiş məqalədən öyrənirik ki, Tağı bəy Səfiyev 1895-1896-cı illərdə Nehrəm kənd məktəbində ikinci müəllim vəzifəsində də işləmişdir. Onun bu vəzifəyə təyin edilməsində böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin böyük rolu olmuşdur.

Qeyd edək ki, Tağı bəy Səfiyev Nehrəm məktəbində rus dili fənnindən dərs demişdir. O bu fənnin məktəblərdə tədrisinin təkmilləşdirilməsinin yeni metod və yolları haqqında Rusiya Maarif Komissarlığına özünün hazırladığı xüsusi bir layihə də təqdim etmişdir. Layihə Rusiya Maarif Komissarlığı tərəfindən bəyənilmiş, bu münasibətlə Tağı bəy Səfiyevi Rusiya Maarif Komissarlığı “Maarif zərbəçisi” döş nişanı ilə təltif etmişdir.

Tağı bəy Səfiyev, eyni zamanda bir ictimai xadim kimi də fəaliyyət göstərmişdir. O, Türkiyə-Rusiya və Azərbaycan arasında bağlanmış Qars müqaviləsinin imzalanma mərasimində Naxçıvan nümayəndəliyinin tərkibində iştirak etmişdir.

Tağı bəy Səfiyevin o dövrdə bir ictimai xadim kimi tanınması, mövcud hakimiyyət orqanlarının bir çox məmurlarını narahat etməsi və onun 1937-ci il repressiya qurbanlarının siyahısına daxil olmasına səbəb olmuşdur. O, həbs edilmiş, 1939-cu ildə ürək tutmasından qəflətən vəfat etmişdir.

Bəhs olunan dövrdə Naxçıvanda maarifçilik ideyalarının inkişafında seminariyanın məzunlarından ***Sadıq Xəlilov***un da böyük xidmətləri olmuşdur. O, 1864-cü il dekabr ayının



20-də Naxçıvan şəhərində dünyaya göz açmış, 1905-ci il noyabr ayının 3-də isə Naxçıvan şəhərində faciəli şəkildə qətlə yetirilmişdir.

Sadıq Xəlilov ilk təhsilini 1877-1882-ci illərdə Naxçıvan şəhər ibtidai məktəbində almış, 1882-ci ildə İrəvan Müəllimlər Seminariyasına qəbul olmuş, 1886-cı ildə isə seminariya təhsilini başa vurmuşdur. Xalq Məktəbləri Direktorluğu 1886-cı il 1 iyul tarixli sərəncamı ilə Sadıq Xəlilovu Yengicə məktəbinə ikinci müəllim vəzifəsinə təyin etmişdir. O, 1888-ci il iyul ayının 14-də Nehrəm kənd məktəbinə eyni vəzifəyə dəyişdirilmişdir. O bu məktəbdə də uzun müddət qalmamış, Xalq Məktəbləri Direktorluğunun müvafiq əmri ilə yenidən Yengicə məktəbinə qaytarılmışdır.

Akademik İsa Həbibbəyli “Cəlil Məmmədquluzadə: mühiti və müasirləri” adlı tədqiqat əsərində yazır: “Sadıq Xəlilov 1901-ci ildən etibarən Naxçıvan şəhər məktəbində ana dili və şəriət müəllimi işləmişdir. 22 aprel 1902-ci ildə isə Azərbaycan və rus dillərini mükəmməl bilən savadlı ziyalı kimi Naxçıvan şəhər rəisi Cəfərqulu Naxçıvanskinin köməkçisi vəzifəsinə dəyişdirilmişdir”.

Adıçəkilən seminariyanın naxçıvanlı məzunlarından ***Mirzə Cəlil Şürbi (Mirzəyev)*** Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə öndə gedənlərdən biri olmuşdur. O, 1874-cü il fevral ayının 12-də Naxçıvan şəhərində anadan olmuş, 1915-ci il sentyabr ayının 4-də isə Naxçıvan şəhərində dünyasını dəyişmişdir.

Mirzə Cəlil Şürbi seminariyadakı təhsilini başa vurduqdan sonra (1892-ci ildə) təyinatı üzrə Şərur-Dərələyəz qəzasının Aralıq ibtidai məktəbində müəllimlik fəaliyyətinə başlamışdır. İki il burada işlədikdən sonra 1894-cü ildə Nehrəm kənd məktəbinə dəyişdirilmişdir. Lakin onun Nehrəm kənd məktəbindəki müəllimlik fəaliyyəti çox çəkməmiş, o yenidən Naxçıvan şəhər məktəbinə göndərilmişdir.

Mənbələrdə Mirzə Cəlil Şürbinin 1903-1908-ci illərdə Ordubad qəzasının Vənənd kənd ibtidai məktəbində nəzarətçi vəzifəsində işlədiyi də göstərilmişdir. O, bir müddət burada işlədikdən sonra geri çağırılmış, Naxçıvan şəhər rus-tatar məktəbinə müdir vəzifəsinə təyin edilmişdir. O bu vəzifədə 1913-cü ilin əvvəllərinədək çalışmışdır. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində saxlanılan bir sənəddə Mirzə Cəlil Şürbinin pedaqoji fəaliyyətinə görə 1909-cu ildə “Kollec reqistratoru” rütbəsi verildiyi göstərilir.

Qeyd edək ki, Mirzə Cəlil Şürbi 1914-cü il avqust ayının 27-də Xalq Məktəbləri Direktorluğunun xüsusi bir Sərəncamı ilə Şahbuz məktəbinə dəyişdirilmişdir.

İrəvan Müəllimlər Seminariyasının bacarıqlı naxçıvanlı məzunlarından ***Qasım bəy Camalbəyov***un da adını çəkə bilərik. Siyasi və diplomatiya tarixində özünəməxsus xidmətləri olan Qasım bəy Camalbəyov 1881-ci ildə Naxçıvan şəhərində dünyaya göz açmış, 1938-ci ildə isə Bakı şəhərində qətlə yetirilmişdir.

Qasım bəy Camalbəyovun atası Abbasqulu bəy oğlunu 7 yaşında olarkən mədrəsəyə oxumağa göndərmişdir. Mədrəsə təhsilini yarıda kəsən Qasım bəy Camalbəyov daha sonra təhsilini “Məktəbi-tərbiyə” (“Tərbiyə”) məktəbində davam etdirmişdir. O, iki il bu məktəbdə təhsil aldıqdan sonra şəhər dördillik məktəbinə daxil olmuşdur. Pedaqogika üzrə elmlər doktoru, professor Rüfət Hüseynzadə yazır: “Qasım



bəy Camalbəyov 1901-ci ildə İrəvan Müəllimlər Seminariyasında imtahan vermiş, xalq müəllimi rütbəsi almış, 1901-ci ildən 1911-ci ilədək İrəvan quberniyasının müxtəlif kəndlərində müəllimlik etmiş, 1912-ci ildən isə tərcüməçi işləməyə başlamışdır”.

Adıçəkilən seminariyanın tanınmış naxçıvanlı məzunlarından biri də ***Eynəli bəy Sultanov*** olmuşdur. O, Naxçıvan qəza məktəbində ibtidai təhsilini 1879-cu ildə başa vurmuş, 1880-ci ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuşdur.

Yüksək hazırlığına, mənəvi yetkinliyinə, ədəbi istedadına görə Eynəli bəy Sultanovun həmin seminariyada axıradək oxumasına ehtiyac qalmamışdı. O, 1886-cı il iyun ayının 5-də seminariyanın yeddinci sinfindən çıxmışdır. Elə həmin ildə İrəvan Müəllimlər Seminariyası Pedaqoji Şurasının Qərarı ilə 538 nömrəli müəllimlik şəhadətnaməsinə əsasən ona şəhər ibtidai məktəblərində müəllimlik etmək hüququ verilmişdir.

Eynəli bəy Sultanov seminariyada oxuduğu müddətdə mükəmməl təhsil almış, xüsusən Avropa dövlətlərini və Qərb maarifçiliyini dərindən öyrənə bilmişdir. O, rus, latın, yunan və fransız dillərini, riyaziyyat, fizika, tarix, coğrafiya, ilahiyyat və hüsnxət kimi fənləri öyrənməyə həvəs göstərmişdir. Onu da qeyd edək ki, mənbələrdə Eynəli bəy Sultanovun 1881-1882-ci tədris ilinin imtahanlarında yunan dili və ədəbiyyatı, latın dili və tarixi fənlərindən “əla” qiymətlər aldığı, tərcümə məşğələləri zamanı xüsusi qabiliyyət nümayiş etdirdiyi göstərilmişdir.

Pedaqogika üzrə elmlər doktoru, professor Rüfət Hüseynzadənin araşdırmalarına nəzər salsaq, İrəvan Müəllimlər Seminariyasının daha bir naxçıvanlı məzunu ***Axund Məmmədbağır Kazımzadə***nin adının çəkildiyini görərik.

Naxçıvan şəhər ibtidai məktəbində tatar dili müəllimi işləmiş Axund Məmmədbağır Kazımzadə də Naxçıvanda maarifçilik ideyalarının həyata keçirilməsində mühüm işlər görmüşdür.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə adıçəkilən seminariyanın naxçıvanlı məzunlarından Məmməd Axundovun, Hacı Məmmədəli oğlunun və Rəhim Xəlilovun da unudulmaz xidmətləri olmuşdur. “Kavkazskiy kalendar”ın 1900-cü il məcmuəsinin 235-ci səhifəsində Rəhim Xəlilovun Uluxanlı məktəbinə, daha sonra isə İrəvan Müəllimlər Seminariyasına dəvət olunduğu göstərilmişdir.

Təəssüf hissi ilə bir məsələni də vurğulamaq lazımdır ki, 37 il fəaliyyət göstərən bu təhsil ocağı 1918-ci il avqust ayının 6-da, İrəvan gimnaziyası isə Uluxanlı məktəbi ilə eyni vaxtda fəaliyyətini dayandırmışdır. Uluxanlı məktəbi 1920-ci ildə yenidən açılsa da, İrəvan Müəllimlər Seminariyası və İrəvan gimnaziyası bir daha fəaliyyət göstərməmişdir.

*Beləliklə, XIX əsrin sonu-XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə İrəvan Müəllimlər Seminariyası məzunlarının böyük rolu olmuşdur.*

**Taleh XƏLİLOV**
***Naxçıvan Dövlət Universitetinin dosenti***

*Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin tələbinə əsasən hər bir valideyn uşaqların qayğısına qalmağa və onları tərbiyə etməyə borcludur. Valideynlik hüquqlarını həyata keçirərkən valideynlər uşaqların mənəvi inkişafına, fiziki və psixi sağlamlığına xələl yetirməməlidirlər.*

# Uşaqları zərərli informasiyadan qorumaq valideynlərin həm də mənəvi vətəndaşlıq borcudur



Bu gün valideynlərin qarşısında duran əsas vəzifələrdən biri uşaqları zərərli informasiyalardan qorumaqdan ibarətdir. Yəni bugünkü kriminal və neqativ informasiya bolluğunda hər bir valideyn öz övladının altşüuruna hansı informasiyanın ötürüldüyünə diqqət etməlidir. Yayılan zərərli informasiyalar bütün cəmiyyət üzvləri ilə yanaşı, uşaqlara da ciddi zərər vurur. Xüsusən də sosial şəbəkələrdə yayılan zərərli informasiyalar, ilk növbədə, uşaqların altşüurunu zədələyir.

Psixoloqlar uşaqların nəzarətsiz olaraq kompüter və smartfonlardan, internet informasiya resurslarından istifadəsinin onların yaş xüsusiyyətlərinə, psixologiyasına uyğun olmayan informasiyalarla yüklənməsi ilə nəticələnə biləcəyini və bunun da onları gələcəkdə bir çox təhlükələrlə qarşı-qarşıya qoyacağını bildirirlər. Təbii ki, valideynlərin övladlarını bu təhlükələrdən qorumaları onların başlıca valideynlik borcu, ana məramlı olmalıdır.

Hər bir uşağın yaşına uyğun informasiya əldə etmək hüququ var. Bəs bu hüququnu əlindən almadan onları zərərli informasiyalardan necə qoruya bilərik?

2020-ci il yanvarın 1-dən qüvvədə olan "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu uşaqların yaşına uyğun informasiya əldə etmək hüququnun həyata keçirilməsi ilə əlaqədar olaraq uşaqların onlar üçün zərərli informasiyadan qorunması tədbirlərini müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir.

Məlum olduğu kimi, elektron kütləvi informasiya vasitələri dövriyyəyə sürətlə daxil olduğu üçün artıq televiziya və radio ilə kifayətlənmir, həm də sosial şəbəkələrdən istifadə edirik. Bu, günümüzün gerçəkliyidir. Odur ki, heç kəsi, o cümlədən uşaqları məcbur edə bilmərik ki, bu qədər geniş yayılan sosial şəbəkələrə biganə qalsınlar. Bundan yeganə çıxış yolu uşaqların düzgün yönləndirilməsidir. Uşaqları qorumaq üçün jarqon, qeyri-əxlaqi ifadələri, narkotik vasitələri, psixotrop maddələri, alkoqolu təbliğ edən informasiya axınının qarşısını almaq lazımdır.

Gəlin qeyd etdiyimiz qanunun tələblərinə və mahiyyətinə birlikdə nəzər salaq. Qanunvericiliyin tələbinə əsasən uşaqların informasiya əldə etməsi onların əldə olunması qanunla məhdudlaşdırılmayan informasiyanı, o cümlədən informasiya məhsulunu əldə edib ondan istifadə imkanıdır. İnformasiya məhsulları ölkə ərazisində dövriyyə və istehlak üçün nəzərdə tutulan kütləvi informasiya vasitələri məhsulları, audiovizual məhsullar, kompüter və digər elektron oyunlar, habelə mədəni-kütləvi tədbirlər və telekommunikasiya şəbəkəsi vasitəsilə yayımlanan digər informasiya məhsullarıdır.

Qanunvericilikdə informasiya məhsullarının yaş kateqoriyası və yaş təsnifatı da öz əksini tapıb. Uşaqlar üçün nəzərdə tutulmuş informasiya məhsullarına mövzusuna, məzmununa və tərtibatına görə yalnız və ya əsasən, yetkinlik yaşına çatmayanlara aid edilən informasiya məhsulları daxildir.

Bütövlükdə, zorakılığı və qəddarlığı, cəmiyyət əleyhinə və hüquqazidd hərəkətləri, o cümlədən cinayətləri, uşaqların həyat və təhlükəsizliyinə potensial təhlükə yaradan əməlləri təbliğ edən, ailə institutumuzu nüfuzdan salan, əxlaqdan kənar leksik (söyüş) məzmunlu, qeyri-əxlaqi informasiyalar uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya hesab olunur.

Zərərli informasiyalar uşaqlarda cinayət törətmək həvəsi oyadır, cinayətkar mühiti, o cümlədən cinayətləri və cinayətkarları, kriminal norma və dəyərləri, cinayətkar mühitin kriminal jarqonları da daxil olmaqla atributlarını və simvollarını müsbət mənada təqdim və təbliğ edir. Bu informasiyalar uşaqlarda davamlı qorxu, təlaş, yaxud dəhşət hissi yarada bilir, uydurma məxluqların dəhşətli görüntüsü və ya təsviri, eləcə də ciddi xəsarətlərin, intiharın (o cümlədən intihara cəhdin), bədbəxt hadisələri, qəzaları təbliğ edir.

Qanunvericilik uşaqların zərərli informasiyadan qorunması sahəsindəki əsas prinsiplər müəyyən etmişdir. Buraya uşaqların mənafelərinin üstün tutulması, onların hüquq və azadlıqlarının təmin olunması, həyat və sağlamlığı üçün təhlükəsiz olan, hərtərəfli inkişafını və sosiallaşmasını təmin edən informasiya məhsullarının dövriyyəsinə şəraitin yaradılması, zorakılığın, qəddarlığın, narkotik vasitələrin və psixotrop maddələrin, alkoqollu və energetik içkilərin, habelə tütün məmulatlarının, cəmiyyət əleyhinə davranışın yolverilməzliyi, zərərli informasiya məhsullarının dövriyyəyə daxil edilməsinin, o cümlədən informasiya texnologiyalarından istifadə etməklə uşaqlara qarşı törədilən hüquqpozmaların qarşısının alınması və uşaqların zərərli informasiyadan qorunması sahəsində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi daxildir.

Həmçinin müəyyən yaş qrupuna aid uşaqlar arasında dövriyyəsi məhdudlaşdırılan informasiyalar da vardır. Bunlara zorakılığı və qəddarlığı nümayiş edən informasiyalar aiddir. Uşaqlar arasında dövriyyəsi qadağan edilən və ya məhdudlaşdırılan informasiyanın istehsalçısı və yayıcısı qeyd olunan qanunda müəyyən edilmiş qaydalara riayət etməyə borcludur. Uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsullarının uşaqların ola biləcəyi yerlərdə inzibati, texniki proqram və avadanlıq vasitələrinin tətbiq edilmədən yayılmasına yol verilmir.

Qanunvericiliyin tələbinə əsasən informasiya məhsulunun hazırlanması mərhələsindən başlayaraq müəyyən tələblər ödənməlidir. İnformasiya məhsulu hazırlanarkən, ya da yayımlanarkən müxtəlif yaş qrupuna aid olan uşaqların normaya uyğun psixi inkişafının xüsusiyyətləri nəzərə alınmalı, informasiya məhsullarının yaş kateqoriyasına uyğun təsnifatı aparılmalıdır.

İlk növbədə, informasiya məhsulunun mövzusu, janrı, məzmunu və bədii tərtibatı nəzərə alınır. İnformasiyanın müəyyən yaş kateqoriyasına aid uşaqlar tərəfindən mənimsənilməsinin xüsusiyyətlərinə diqqət yetirilir.

Uşaqlar üçün nəzərdə tutulan informasiya məhsullarında onların zərərli informasiya məhsulunun hazırlanmasına cəlb edilməsi barədə elanların yerləşdirilməsi yolverilməzdir. Məktəbəqədər təhsil müəssisələrində uşaqların təlimi üçün nəzərdə tutulan informasiya məhsullarının məzmunu və bədii tərtibatı altı yaşadək uşaqlar üçün nəzərdə tutulan informasiya məhsullarının məzmununa və bədii tərtibatına uyğun olmalıdır.

Qeyd olunan qanunun icrasına nəzarət dövlət və ictimai nəzarət formalarında həyata keçirilir.

Sosioloqlar qeyd edirlər ki, uşaqların zərərli informasiyalardan asılı vəziyyətə düşmələrində valideynlər daha çox müqəssirdir. Məktəbli uşaqların hərəsinin əlində kitab boyda bir telefon, planşet var. Evdə azad internet olduğu üçün istədiyi sayta girə, xoşuna gələn oyunu oynaya bilir. Valideyn nəzarət etməsə, bu oyun asılılığı təhlükəli həddə qədər yüksələ bilir. Onların oynadığı oyunlar, girdiyi saytlar üçün kompüterdə filtr-süzgəc tətbiq etmək olar. Yaxud, sadəcə, diskləri alıb müəyyən edilmiş oyunları oynamağa icazə vermək lazımdır.

Ölkəmizdə media azaddır. Media sahəsində fəaliyyətin azadlığı hər kəsin qanuni yolla informasiya axtarmaq, əldə etmək, hazırlamaq, ötürmək, istehsal etmək və yaymaq hüququna dövlət tərəfindən təminat verilməsinə əsaslanır. Lakin media subyektləri bu azadlıqdan sui-istifadə etməməlidirlər.

Teleradio yayımı vasitəsilə yayımlanan və "Universal", "6-", "6+" və "12+" yaş kateqoriyalarına aid informasiya məhsullarının yayımlanması vaxt məhdudiyyəti qoyulmur. Ancaq "16+" yaş kateqoriyasına aid informasiya məhsulları yerli vaxtla saat $7^{00}$-dan saat $21^{00}$-dək, "18+" və "16+" yaş kateqoriyalarına aid informasiya məhsulları yerli vaxtla saat $6^{00}$-dan saat $23^{00}$-dək yayımlanmalıdır.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 388-2-ci maddəsinə əsasən uşaqların zərərli informasiyadan qorunması haqqında qanunvericiliyin pozulması yolverilməzdir. Yəni uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsulları uşaqların ola biləcəyi yerlərdə yayılması, informasiya məhsulunun "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanuna əsasən yaşa görə təsnifatlaşdırılmasını təmin etmədən, o cümlədən həmin qanunla müəyyən edilmiş hallar istisna olmaqla informasiya məhsulunu müvafiq yaş kateqoriyasına uyğun işarələmədən ölkə ərazisində yayılması qadağandır. İnformasiya məhsulunun yayımçıları tərəfindən televiziya yayımı, kino və video xidmətlərinin göstərilməsi zamanı hər bir informasiya məhsulunun nümayişindən əvvəl xüsusi kadrda (səhifədə) informasiya məhsulunun yaş kateqoriyasına uyğun işarə və yaş məhdudiyyəti barədə, o cümlədən internet informasiya ehtiyatlarında informasiya məhsulunun uşaqlar arasında yayılmasını məhdudlaşdıran xəbərdarlığa dair mətn yerləşdirilməli, "18+" yaş kateqoriyasına aid informasiya məhsulu teleradio vasitəsilə yayımlanarkən bu informasiya məhsulunun yaş kateqoriyası haqqında xəbərdarlığı televiziya yayımı zamanı işarə, radio yayımı zamanı isə səsləndirmə ilə həyata keçirilməlidir. Eyni zamanda uşaqlar üçün nəzərdə tutulan informasiya məhsullarında onların zərərli informasiya məhsulunun hazırlanmasına cəlb edilməsi barədə elanların yerləşdirilməsinə, məhdud şəxslər dairəsində yayılması nəzərdə tutulan mətbu nəşrin birinci və sonuncu səhifəsində, çap məhsulunun və digər poliqrafik məhsulun üz və arxa qabığında uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiyanın əks olunmasına və ya həmin informasiya məhsulunun qablaşdırmadan yayılmasına və uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsulunun uşaqlar üçün nəzərdə tutulmuş təhsil müəssisələrində, tibb, sanatoriya-kurort, bədən tərbiyəsi və idman, mədəniyyət, istirahət və sağlamlaşdırma müəssisələrində və ya həmin müəssisələrin sərhədindən yüz əlli metrdən az olan məsafədə yayılmasına yol verilməməlidir. Bu qanunvericiliyin pozulmasına görə fiziki şəxslər beş yüz manatdan min manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz, hüquqi şəxslər isə üç min manatdan dörd min manatadək məbləğdə cərimə edilir.

*Bu gün hər bir valideyn uşaqların zərərli informasiyalardan qorunması üçün müqəddəs valideynlik borcunu vicdanla yerinə yetirməli, öz övladlarının altşüuruna hansı informasiya ötürülməsinin fərqində olmalıdır.*

**Faiq SƏFƏROV**
***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi,***

## Tibbi-profilaktik tədbirlər davam etdirilir

İnfeksiyaların muxtar respublika ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlər davam etdirilir. Müvafiq Tədbirlər Planına uyğun olaraq infeksion və mövsümi xəstəliklərə, viruslara qarşı Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi, Gigiyena və Epidemiologiya Mərkəzi və Dövlət Baytarlıq Xidmətinin birgə təşkilatçılığı ilə yoluxma hallarının qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə bütün təlim-təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlər intensivləşdirilib. Tərtib edilən qrafik əsasında sentyabrın 10-dək Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarındakı təlim-tədris müəssisələri dezinfeksiya olunacaq.



Dünən profilaktik tədbirlər Naxçıvan Dövlət Universitetinin tədris korpuslarının ətraflarında, girişlərdə, otaqlarda, fənn kabinələrində, laboratoriyalar və idman zallarında və daha çox istifadə olunan yerlərdə, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin tədris korpusunda, yeməkxana və yataqxana binalarında və digər ərazilərdə, həmçinin Naxçıvan Qarnizonu tam orta məktəbində aparılıb.

Muxtar respublikanın rayonlarındakı tam orta, uşaq musiqi, şahmat məktəblərində, uşaq bağçalarında da tibbi-profilaktik tədbirlər icra edilib.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Karateçilərimiz Bakıdan 17 medalla qayıdıblar

Bakı İdman Sarayında 6-13 yaş arası uşaqlar arasında "Olimpiya ümidləri – 2022" beynəlxalq karate turniri keçirilib. Avropa Karate Federasiyasının təqvim planına daxil edilən yarışda Küveyt, Qazaxıstan, Özbəkistan, Litva, Amerika Birləşmiş Ştatları və Azərbaycandan olan idmançılar iştirak ediblər.




Naxçıvan Karate-do Federasiyasının 23 idmançısı turnirdə medallar uğrunda mübarizə aparıb. Təmsilçilərimizdən 15-i adını mükafatçılar sırasına yazdırmağı bacarıb. Əli Bayramov (12-13 yaş, 55+ kiloqram), Ayxan Musayev (10-11 yaş, -30 kiloqram), Sona Bağırova (8-9 yaş, -35 kiloqram), Məhəmməd Quluzadə (8-9 yaş, 35+ kiloqram, 40+ kiloqram), Xədicə Bayramova (6-7 yaş, -25 kiloqram), Yusif Orucov (6-7 yaş, -20 kiloqram), Elşən Teymurzadə (6-7 yaş, -25 kiloqram), Həmidə Əzizova (6-7 yaş, 25+ kiloqram) birinci olublar. Digər idmançılarımız müxtəlif əyarlı medallar qazanıblar.

Bununla da Naxçıvan karateçiləri yarışı 9-u qızıl, 4-ü gümüş, 4-ü bürünc olmaqla, ümumilikdə, 17 medalla tamamlayıb.

## İlk qalib məlumdur

Uzunoba Təlim-Məşq İdman Kompleksində çimərlik voleybolu üzrə ilk muxtar respublika birinciliyi reallaşıb. Gənclər və İdman Nazirliyi və Naxçıvan Voleybol Federasiyası tərəfindən birgə təşkil olunan yarışda 8 komanda iştirak edib. 2 gün davam edən birinciliklə komandalar olimpiya sistemi üzrə mübarizə aparıblar. Final qarşılaşmasında "Sədərək" və "Culfa" komandaları meydanda olub. Həlledici görüşdən 2-0 hesablı qələbə ilə ayrılan Sədərək idmançıları çimərlik voleybolu üzrə ilk muxtar respublika birincisi adına yiyələniblər. Culfalılar ikinci yerlə kifayətlənib. Üçüncülük oyununda "Şərur"dan üstün olan "Naxçıvan" komandası isə yarışı üçüncü sırada tamamlayıb.



Birinciliyin sonunda ilk üçlük diplom və hədiyyələrlə mükafatlandırılıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Rəhimov Qurbanəli Novruzəli oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Əliyev Məhəmməd Şahin oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Məmmədov Altay Kamil oğlunun adına olan sürücülük vəsiqəsi və avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-81-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 769